Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan Milli
Kitabxanası

# NAXÇIVAN MUXTAR RESPUBLİKASI - 100

## Metodik vəsait



Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

Azərbaycan Milli Kitabxanası

# Naxçıvan Muxtar Respublikası – 100
## Metodik vəsait

*Respublikanın kütləvi və ixtisaslaşdırılmış kitabxanaları, Mərkəzləşdirilmiş Kitabxana Sistemləri üçün metodik vəsait*

**BAKI - 2024**

**Tərtibçi:** Aygün Koçak

**İxtisas redaktoru:** Kərim Tahirov,
*Professor,*
*Əməkdar mədəniyyət işçisi*

**Naxçıvan Muxtar Respublikası-100**: metodik vəsait: [Elektron resurs] / tərt. ed. A.Koçak; ixtisas red. K.Tahirov.– Bakı, 2024. – 37 s.

© Azərbaycan Milli Kitabxanası, 2024

**“Naxçıvan muxtariyyəti tarixi nailiyyətdir, biz bunu qoruyub saxlamalıyıq. Naxçıvanın muxtariyyəti Naxçıvanın əldən getmiş başqa torpaqlarının qaytarılması üçün ona xidmət edən çox böyük bir amildir. Biz bu amili qoruyub saxlamalıyıq”.**

**Heydər ƏLİYEV,**
*Azərbaycan xalqının ümummilli lideri*

# Tərtibçidən

Bu il Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 ili tamam olur.

Naxçıvan 1924-cü il fevralın 9-da muxtariyyət statusu alıb. Muxtariyyət statusu Rusiya ilə Türkiyə arasında 1921-ci ildə bağlanılan Moskva müqaviləsi ilə, daha sonra isə Türkiyə ilə Cənubi Qafqaz respublikaları arasında imzalanan Qars müqaviləsi ilə rəsmiləşdirilib.

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi ilə qəbul edilən Konstitusiya ilə Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində muxtar dövlət statusu verilib.

Muxtar Respublika inzibati cəhətdən 7 rayon və Naxçıvan şəhər inzibati ərazi dairəsindən ibarətdir. Naxçıvanda 5-i şəhər (Naxçıvan, Ordubad, Culfa, Şərur və Şahbuz), 8-i şəhər tipli qəsəbə, 206-sı kənd olmaqla ümumilikdə 219 yaşayış məntəqəsi yerləşir. Muxtar Respublikanın inzibati mərkəzi qədim Naxçıvan şəhəridir.

Təqdim olunan vəsaitdə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, Naxçıvanın muxtariyyəti haqqında giriş məqaləsi, yubileylə bağlı kitabxanalarda keçiriləcək tədbirlərə dair metodik tövsiyələr, həmçinin "ƏLAVƏLƏR" hissəsində "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı, "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli

Sərəncamının icrasının təmin edilməsi barədə Azərbaycan Respublikasının Baş nazirinin Sərəncamı və "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramı"nın 2023-2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Baş nazirinin Sərəncamı yer alıb.

Nəşrlə bağlı rəy və təkliflərini Milli Kitabxanaya ünvanlayan mütəxəssis və oxuculara əvvəlcədən öz minnətdarlığımızı bildiririk.

Ünvan: AZ-1000 Bakı şəh., Xaqani küç. 57
E-mail: metodik_teminat@anl.az
URL:www.millikitabxana.az

# Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

2024-cü il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaranmasının 100 ili tamam olur.

Naxçıvan diyarı Azərbaycanın çoxəsrlik zəngin keçmişində layiqli yer tutmuş, ictimai-siyasi və elmi-mədəni həyatında özünəməxsus rol oynamışdır. Naxçıvan şəhəri Azərbaycan Atabəyləri – Eldəgizlər dövlətinin paytaxtı olmuş, İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi geniş şöhrət tapmışdır. Bünövrəsi Əcəmi Naxçıvani tərəfindən qoyulmuş memarlıq məktəbinin günümüzədək gəlib çatan yadigarları indi də Naxçıvanın görünüşünə xüsusi rəng qatır. Naxçıvan əsrlər boyu yetirdiyi görkəmli şəxsiyyətləri ilə Azərbaycan dövlətçiliyinin, mədəniyyətinin və elminin tərəqqisinə töhfələr vermişdir.

Strateji mövqeyi ilə seçilməsi tarixən Naxçıvanı vaxtaşırı gərgin siyasi mübarizələr meydanına çevirsə də, bu diyar qarşılaşdığı bütün sınaqları qətiyyətlə dəf etmişdir.

Ermənistanın Azərbaycana qarşı ərazi iddiaları nəticəsində Naxçıvanın uzun müddət tam təcrid və ağır blokada şəraitində olduğu vaxtlarda belə, qəhrəman əhalisi bu qədim Azərbaycan torpağını işğal təhlükəsindən qurtarmış, Azərbaycanın

müstəqilliyi uğrunda atdığı cəsarətli addımlarla milli dövlətçiliyin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsi naminə fədakarlıq nümayiş etdirmişdir.

2020-ci ildə 44 günlük Vətən müharibəsi zamanı Naxçıvanın igid övladları şanlı Zəfər salnaməmizə parlaq səhifələr yazmışlar.

Naxçıvanın davamlı inkişafında Ümummilli Lider Heydər Əliyevin böyük xidməti vardır. Ulu Öndər hakimiyyətə gəldiyi vaxtlardan etibarən daim Naxçıvanı diqqətdə saxlamış, muxtar respublikanın gələcəyi ilə bağlı ən vacib qərarların təşəbbüskarı olmuşdur.

Məhz Heydər Əliyevin uzaqgörənliyi sayəsində 1990-cı il noyabrın 17-də Naxçıvan Muxtar Respublikasının ali qanunverici orqanında Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağının dövlət rəmzi olaraq qəbul edilməsi dövrün mürəkkəb ictimai-siyasi proseslərinə həlledici təsir göstərmiş və Azərbaycanı müstəqilliyə sürətlə yaxınlaşdırmışdır.

Naxçıvan Muxtar Respublikası bu gün dövlət proqramlarını və infrastruktur layihələrini uğurla gerçəkləşdirir, ölkənin iqtisadi qüdrətinin artırılmasında və intellektual potensialının gücləndirilməsində yaxından iştirak edir. Hazırda Naxçıvan beynəlxalq miqyaslı mötəbər tədbirlərin ardıcıl keçirildiyi məkanlardandır. Azərbaycanın ətraf mühitin mühafizəsinə yönəlmiş fəaliyyəti çərçivəsində muxtar respublika yaşıl enerji zonası elan olunmuşdur. Naxçıvan Muxtar Respublikası ilə nəqliyyat imkanlarının genişləndirilməsi istiqamətində işlər davam etdirilir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasının yaranmasının Azərbaycanın siyasi tarixində çox mühüm hadisə olduğunu nəzərə alaraq qərara alıram:

1. Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi geniş qeyd olunsun.

2. Azərbaycan Respublikasının Mədəniyyət Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Elm və Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinə dair tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi ilə razılaşdırmaqla Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə bağlı tədbirlər planının hazırlanmasını və həyata keçirilməsini təmin etsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**

*Azərbaycan Respublikasının Prezidenti*

Bakı şəhəri, 30 dekabr 2023-cü il

# Naxçıvanın muxtariyyəti - mühüm tarixi nailiyyət

Bu il fevralın 9-da Naxçıvan Muxtar Respublikasının yaradılmasının 100 illiyi tamam oldu. Bununla əlaqədar olaraq 2023-cü ilin 30 dekabrında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev "Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında" Sərəncam imzalayıb. Sərəncama əsasən, Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ölkədə, eləcə də muxtar diyarımızda bir sıra elmi və mədəni-kütləvi tədbirlərlə geniş qeyd ediləcək. Naxçıvanın muxtariyyət tarixi çətin yollardan keçib.

Ötən əsrin əvvəllərində Rusiyada baş verən fevral inqilabının qələbəsindən və oktyabr çevrilişindən sonra ucqarlarda da vəziyyət xeyli ağırlaşmışdı. Bu zaman imperiyanın tərkib hissəsi kimi Azərbaycanda və onun ayrılmaz tərkib hissəsi olan Naxçıvanda da gərgin vəziyyət yarandı. Muxtariyyət ərəfəsində Naxçıvan diyarında baş verən hadisələr, Andranik başda olmaqla erməni quldurlarının törətdikləri milli qırğınlar, bununla əlaqədar olaraq dəhşətli və faciəli şəkil almış ictimai və siyasi vəziyyət Cənubi Qafqaz hüdudları çərçivəsindən kənara çıxaraq beynəlxalq problemə çevrildi. O zaman Naxçıvan regionunu idarə etmək üçün 1918-ci ilin ortalarında Cəfərqulu xanın başçılığı ilə Naxçıvanın vətənpərvər qüvvələrini, müəllim və ziyalıları birləşdirən Müsəlman Milli Komitəsi yaradıldı. Naxçıvanda yaradılan bu Milli Komitə əhalisi azərbaycanlıllardan ibarət olan Mehri, Ordubad, Culfa, Şahbuz, Şərur-Dərələyəz bölgələrini öz himayəsi altına almışdı. Lakin bu ərazi və torpaqlar üzərində "Böyük Ermənistan" yaratmaq xəyalı ilə yaşayan ermənilər həmin əraziləri işğal etmək niyyətlərindən bir anlıq da olsa əl çəkmək istəmirdilər.

Çox mürəkkəb tarixi inkişaf yolu keçmiş Naxçıvan bölgəsində hadisələri gərginləşdirənlər XIX əsrin 20-ci illərində Azərbaycan torpaqlarına köçürülən və burada öz dövlətini yaratmağa cəhd edən ermənilər olublar.

1920-ci il aprelin 28-də Xalq Cümhuriyyəti devrildi. Bundan sonra Naxçıvan bölgəsində daha da fəallaşan ermənilər Vedi, Cüvə və Yaycıdan başlamış Ordubadadək ərazini işğal edib, intensiv surətdə hərbi hazırlıq işləri apardılar. Əgər 1918-1920-ci illərdə ermənilərin Naxçıvanı işğal etməklə bağlı cəhdləri daha çox hərbi və siyasi müstəvidə aparılmışdısa, 1920-ci ilin aprelində bolşeviklərin Azərbaycanı işğal etməsindən sonra daşnak Ermənistanın ərazi iddiası mərkəzi hakimiyyətin regional siyasəti səviyyəsinə qaldırılmışdı.

1920-ci il iyulun 28-də Naxçıvan sovetləşdi, ertəsi gün - iyulun 29-da Naxçıvan İnqlab Komitəsi təşkil edildi və bu komitə Naxçıvanı Sovet Sosialist Respublikası adlandırdı. 1920-ci il avqustun 10-da Naxçıvan İnqilab Komitəsinin sədri Mirzəli bəy Bektaşov (Bektaşi) Azərbaycan Xalq Komissarları Sovetinin sədri N.Nərimanova məktub yazaraq Naxçıvanın Azərbaycan SSR-in ayrılmaz tərkib hissəsi olduğunu elan etdi və ona birləşməyə hazır olduğunu bildirdi.

29 noyabr 1920-ci ildə Azərbaycan torpaqlarında Ermənistan SSR-nin yaradılmasından və ertəsi gün - noyabrın 30-da N.Nərimanovun verdiyi bəyanatın qəzetlərdə saxtalaşdırılmış şəkildə nəşr edilməsindən sonra ermənilərin Naxçıvana olan iddiaları daha genişləndi. Zəngəzurun Ermənistana verilməsilə Naxçıvan bölgəsi Azərbaycanın əsas hissəsindən ayrı salındı, nəticədə onun muxtariyyəti məsələsi gündəliyə gəldi. Bu məsələlərdən bəhs edən Ulu öndər Heydər Əliyev vurğulayırdı ki, "əgər Zəngəzur mahalının Ermənistana verilməsi olmasaydı,

bəlkə də Naxçıvanın muxtariyyəti də lazım deyildi və Azərbaycan vahid əraziyə malik olan bir ölkə idi”.

Sovet rəhbərlərinin Azərbaycana qarşı bu cür mənfi münasibətinə və N.Nərimanovun Naxçıvanla bağlı 1 dekabr 1920-ci il tarixli bəyanatına görə dekabrın 5-də Naxçıvan əhalisinin etirazları başlandı. Naxçıvanda vəziyyət kəskinləşdiyinə görə respublika rəhbərliyi İnqilab Komitəsinin üzvü, Ədliyyə komissarı Behbud ağa Şahtaxtınskini Naxçıvana göndərdi. Naxçıvanın muxtariyyət statusu qazanmasında və daşnak təcavüzünə qarşı əhalinin təşkilatlanmasında B.Şahtaxtinski mühüm rol oynadı. Məhz onun təşəbbüsü ilə 1921-ci ilin əvvəllərində Naxçıvanda “Rusiya, Azərbaycan və Ermənistan nümayəndələrinin iştirakı ilə keçirilmiş rəy sorğusunda (referendumda) bölgə əhalisinin 90 faizdən çoxu Naxçıvanın muxtariyyət statusunda Azərbaycanın tərkibində qalmasına səs verdi”.

Naxçıvan məsələsi Türkiyə və Rusiya arasında Moskvada keçirilən görüşlərdə də qızğın müzakirə obyekti olmuşdu. Türk heyəti 2 dekabr 1920-ci il tarixli Gümrü müqaviləsinin qüvvədə olduğunu müdafiə edərkən, rus nümayəndələri bu anlaşmanı, dolayısı ilə Türkiyənin Naxçıvan üzərində himayə haqqı olduğunu qəbul etmirdilər. 9 mart tarixli görüşlərdə Naxçıvanın muxtar statusa sahib olması və başqa bir dövlətə verilməməsi şərti ilə himayəsinin Azərbaycana verilməsi qərarlaşdırılılan, digər məsələləri də özündə ehtiva edən Moskva müqaviləsi 16 mart 1921-ci ildə imzalanmışdı. Türkiyə nümayəndə heyəti Naxçıvanı Türkiyənin himayəsinə ala bilməmişdisə də, regionun Azərbaycan türklərinin əlində qalması təmin edilmiş və Naxçıvan əhalisi bir daha soyqırımına uğrayacağı halda türk ordusunun buna biganə qalmayacağı rəsmi olaraq sənədləşdirilmişdi.

Beləliklə, Naxçıvanın Azərbaycanın himayəsi altında olan muxtar ərazi statusu RSFSR ilə Türkiyə arasında imzalanmış 16 maddə və 2 əlavədən ibarət Moskva müqaviləsində təsbit edildi. Müqavilənin üçüncü maddəsinə görə, əldə edilmiş razılığa əsasən "Naxçıvan bölgəsi Azərbaycan Respublikasının himayəsi altında və həmin vilayətin Azərbaycan tərəfindən heç bir üçüncü dövlətə güzəşt edilməməsi şərti ilə muxtar ərazi təşkil edir". Bu müqavilə eyni zamanda Rusiya ilə Türkiyə arasında mövcud olan problemləri də həll etdi. Müqaviləni I (C) əlavəsində isə Naxçıvan əzazisinin sərhədləri verilmişdi. Sıx ittifaqda birləşən Rusiya və Türkiyə təbii müttəfiqə çevrildilər.

Naxçıvanın ərazi məsələsinin müəyyənləşdirilməsi və onun muxtariyyət statusu əldə etməsində Qars müqaviləsinin rolu danılmazdır. 1921-ci ilin sentyabrın 26-da başlayan Qars konfransı oktyabrın 13-də müqavilə bağlanması ilə başa çatdı. Konfransda Moskva müqaviləsinin maddələri bir daha təsdiq edildi. Qars müqaviləsi əvvəlki müqavilənin şərtlərini daha da möhkəmləndirdi. 20 maddədən və 3 əlavədən ibarət olan bu müqavilənin beşinci maddəsi Naxçıvanın gələcək statusundan bəhs edirdi: "Türkiyə hökuməti, sovet Ermənistanı və Azərbaycan hökumətləri Naxçıvan vilayətinin hazırkı müqavilənin üçüncü əlavəsində göstərilən sərhədlər daxilində Azərbaycanın himayəsi altında muxtar ərazi təşkil etməsinə razıdırlar". Müqavilənin müddətsiz imzalanması bölgənin gələcək taleyi üçün də böyük əhəmiyyət kəsb edir.

Zorla siyasiləşdirilmiş Naxçıvan məsələsi məhz bu müqavilələrlə əhalinin arzu və tələbinə uyğun olaraq həll edilmişdi. Bu halda Naxçıvanın Azərbaycanın tərkibində muxtar respublika kimi qalması imkanı reallaşdı.

Beləliklə, xalqın əzmli müqaviməti və dönməz iradəsi, Türkiyənin yardımı, əsl milli siyasətçi və diplomat olan B.Şahtaxtinski kimi siyasi xadimlərin səyləri nəticəsində Naxçıvan Azərbaycanın tərkibində saxlanıldı. Naxçıvanın statusunun iki beynəlxalq müqavilədə əks olunması böyük siyasi əhəmiyyətə malik bir faktdır.

Ancaq müxtəlif səbəblər üzündən Naxçıvanda muxtariyyətin yaradılması ləngimişdi. Dövlət aparatının saxlanmasının iqtisadi çətinlikləri ilə bağlı 1923-cü ilin əvvəllərində Naxçıvan Respublikasının respublika muxtariyyəti ləğv edildi, ona diyar muxtariyyəti verildi. 27 fevral 1923-cü ildə III Ümumnaxçıvan Sovetlər qurultayının qərarı ilə Naxçıvan Muxtar Diyarı yaradıldı. Belə bir muxtar qurum Moskva müqaviləsinin (1921) və Qars müqaviləsinin (1921) şərtlərinin ziddinə olaraq Naxçıvan SSR muxtariyyətinin məhdudlaşdırılmasını, onun Naxçıvan SSR muxtariyyətinin Azərbaycan SSR-in protektarlığı altında təşkil edilməsini deyil, diyarın məhdud muxtar vilayət hüququnda ona birləşdirilməsini nəzərdə tuturdu.

Naxçıvan Muxtar Diyarı daha çox inzibati-ərazi muxtariyyəti prinsiplərinə uyğun idi və yüksək milli-ərazi muxtariyyəti tələblərinə az cavab verirdi. Halbuki ərazicə Azərbaycandan ayrı salınmış Naxçıvan diyarına geniş səlahiyyətli siyasi hüqüqlar verilməsi bilavasitə 1921-ci il Moskva və Qars müqavilələrinin şərtlərindən irəli gəlirdi. Naxçıvanın muxtariyyəti məsələsinə yenidən baxılması, görünür, elə məhz bu zərurətdən doğmuşdu. 1923-cü il dekabrın 31-də Azərbaycan MİK Naxçıvan Muxtar Diyarının Azərbaycan SSR tərkibində Naxçıvan MSSR-ə çevrilməsi haqqında qərar qəbul etdi. Qərar Cənubi Qafqaz MİK-in yanvar 1924-cü il tarixli birinci plenumunda təsdiq olundu. 9 fevral 1924-cü ildə Azərbaycan Mərkəzi İcraiyyə Komitəsi

Naxçıvan Muxtar Diyarının Naxçıvan MSSR-ə çevrildiyini elan etdi.

1995-ci il noyabrın 12-də ümumxalq səsverməsi (referendum) ilə qəbul edilmiş və həmin il noyabrın 27-də təsdiq edilmiş Azərbaycan Respublikasının Konstitusiyası ilə Naxçıvan Muxtar Respublikasına Azərbaycanın tərkibində muxtar dövlət statusu verilib. Ümummilli lider Heydər Əliyevin parlaq əsəri olan müstəqil Azərbaycanın ilk Konstitusiyası əsasında hazırlanmış, 1998-ci il aprel ayının 28-də Naxçıvan Muxtar Respublikasının Ali Məclisində qəbul olunmuş və həmin il dekabrın 29-da Azərbaycan Respublikasının Milli Məclisi tərəfindən təsdiq edilmiş Naxçıvan Muxtar Respublikasının Konstitusiyası muxtar ərazi statusunun möhkəmləndirilməsində daha bir əhəmiyyətli addım oldu.

Müstəqillik illərində Naxçıvan Muxtar Respublikası çox çətinliklərlə qarşılaşdı və erməni hücumları ilə üzləşdi. Naxçıvan Muxtar Respublikası mövcudluğu, bugünkü yaşayışı və nicatı üçün 1990-1993-cü illərdə Ulu öndər Heydər Əliyevin burada yaşayıb-işləməsinə, siyasi fəaliyyət göstərməsinə borcludur. Həmin illərdə Muxtar Respublika Ümummilli lider Heydər Əliyevin rəhbərliyi ilə qorunmuş və inkişafı təmin edilmişdi.

Muxtar Respublikanın statusunun və sərhədlərinin beynəlxalq təşkilatlar səviyyəsində tanıdılması istiqamətində də ardıcıl tədbirlər həyata keçirilib.

Bu gün yeni inkişaf dövrünü yaşayan Naxçıvan muxtariyyət statusu qazanmasının 100-cü ildönümünü qürur və fəxrlə qeyd edir. Ölkə Prezidentinin dediyi kimi: “Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini

göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir".

***Yaşar RƏHİMOV,***
*Tarix üzrə fəlsəfə doktoru*
*https://525.az/news/252893-naxcivanin-muxtariyyeti--muhum-tarixi-nailiyyet*

# Yubiley ili ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlər

Naxçıvanın tarixi, mədəniyyəti, elmi, təhsili, iqtisadiyyatı, tarixi-mədəni ənənələrin formalaşması haqda məlumatların geniş ictimaiyyətə çatdırılmasında bir sıra sahələrin mütəxəssisləri kimi kitabxanaçıların da qarşısında mühüm vəzifələr durur. Kitabxanalarda əvvəlcədən hazırlanmış tədbirlər planı əsasında il ərzində elektron resurslar, ənənəvi və virtual sərgilər, kitab sərgiləri, yeni kitabların təqdimatı, elmi-praktik konfranslar, mühazirə, maarifləndirici layihə və tədbirlərin keçirilməsi, Naxçıvanda olan tarixi və dini abidələri ziyarət, Naxçıvan haqqında çəkilmiş filmlərə baxış, silsilə məqalələrin dövri nəşrlərdə dərc edilməsi, internet saytlarında yerləşdirilməsi, faktların, sənədlərin video görüntülər vasitəsi ilə nümayiş etdirilməsi, virtual ekskursiyaların təşkili, məlumatlandırma və təbliğat xarakterli çap məhsullarının (buklet, flayer, təqvim və s.) nəşri məqsədəuyğun olardı.

İlk növbədə kitabxananın saytında Naxçıvan MR haqqında kitabxananın fondunda olan materiallar əsasında **elektron məlumat bazası**nı hazırlamaqla daha çox əhalini, bütün dünyanı məlumatlandırmaq mümkündür. Elektron məlumat bazasında Naxçıvan MR haqqında mühüm tarixi hadisələri, faktları, rəsmi sənədləri müfəssəl şəkildə əks etdirmək faydalı olardı.

***Nümunə:***

***Naxçıvan Muxtar Respublikası – 100***

**Naxçıvan Muxtar Respublikasının yaranması**

- ✓ Ümumi məlumat
- ✓ Muxtariyyət tarixi

**Rəsmi sənədlər**
**Görkəmli naxçıvanlılar**
**Adət və ənənələr**
**Tarixi arxeoloji və memarlıq abidələri**

- ✓ Qədim yaşayış məskənləri
- ✓ Ziyarətgahlar
- ✓ Buzxanalar
- ✓ Türbələr
- ✓ Məscidlər
- ✓ İmamzadələr

**Muzeylər**
**Teatrlar**
**Kitabxanalar**
**Rəssamlıq**
**Naxçıvanın mətbəxi**
**Ədəbiyyat**
**İqtisadiyyat**
**Nəşrlər**

- ✓ kitablar
- ✓ məqalələr

**Fotoqalereya**
**Videoqalereya**

Nümunə üçün Azərbaycan Milli Kitabxanasının rəsmi internet səhifəsində bu mövzuda hazırlanmış bazaya baxa bilərsiniz. (https://anl.az/el/emb/Naxchivan-100/index.html)

Hazırda multimedia resursları, demək olar ki, bütün fəaliyyət istiqamətlərində istifadə olunur və onlarsız heç bir kitabxanada tədbir keçirilmir. Müxtəlif tədbirlərdə DVD, slayd təqdimatlar,

musiqili kompakt disklər, müxtəlif növ informasiya mənbələrindən, o cümlədən qlobal internet şəbəkəsindən istifadənin təşkili tədbiri daha maraqlı edir. Bu gün keçirilən tədbirləri slayd təqdimatlarsız, videofilmlərsiz, İnternetdən əldə olunmuş maraqlı məlumatlarsız təsəvvür etmək mümkün deyil. Ona görə də kitabxanalarda multimedia resurslarının köməyi ilə virtual ekskursiyaların, bədii və sənədli baxışların kütləvi təşkili də çox faydalıdır

Əhalinin daha çox hissəsinin sosial şəbəkələrdən fəal istifadə etdiyini nəzərə alsaq, kitabxanaçı da sosial şəbəkələrdə fəal olmalı, Naxçıvan MR-nın tarixi, mədəniyyəti, tarixi-memarlıq abidələri, onların təbliği üçün keçirilən tədbirlərin foto şəkillərini, video çarxlarını yerləşdirməklə kitabxanaya daxil olmuş yeni kitablardan informasiyalar verməli və daha çox insanları Naxçıvan MR ilə tanış etməlidir.

Bu gün kitabxanalarda istənilən mövzu üzrə **virtual sərgi**lərin hazırlanması çox aktualdır. Virtual sərgilər canlı, dinamik və rəngarəng olduğu üçün özünə daha çox oxucu cəlb edə bilir. Virtual sərgiləri bir neçə tərtibatda təşkil etmək mümkündür. Buraya yalnız bir kitabın sərgisi, toplu halında olan kitabların sərgisi, səsli mətnlərin və ya musiqinin müşayiəti ilə kitablar haqqında qısa annotasiyaların səsləndirilməsi və s. daxildir. Virtual sərgilər üçün ilk növbədə slaydlar hazırlanmalıdır.

***Nümunə:***

- **Titul slayd:** sərginin başlığı: ***“Dövlətçiliyimizin, mədəniyyətimizin və elmimizin tərəqqisində Naxçıvanın rolu”***
- **Slayd 2:** Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

• **Slayd 3:** Kitabların şəkilləri, biblioqrafik təsviri və qısa annotasiyaları ilə birgə nümayişi. Bu slaydda həmçinin dövri mətbuat bölməsi yaradıb qəzet və jurnallarda mövzu ilə bağlı məqalələri də yerləşdirmək olar.


❖ *Qasımov, Ə. Heydər Əliyev və Naxçıvan Muxtar Respublikası: Sənədlər və materiallar toplusu: (1969-1982-ci illər) /Ə.Q.Qasımov; layihənin rəh., elmi red. və ön söz. müəl. Y.Mahmudov.- Bakı: [Turxan NPB], 2020.- 399, [1] s.: faksimile, fotoşək., xəritə, 24 sm.*

❖ *Naxçıvan rəssamlarının ensiklopediyası: [NRE] /[Azərb. Milli Elmlər Akad., Naxçıvan bölməsi, Naxçıvan Muxtar Respublikasının Rəssamlar Birliyi; tərt.: Ü.T.Həmzəyeva, N.İ.Alıyev, A.A.Xudiyev; red. R.Ə.Zülfüqarov]; red. hey.: İ.Hacıyev, Ü.Həmzəyeva, F.Xəlilov, İ.Həbibbəyli.- Naxçıvan: [Əcəmi NPB], 2022.- 157, [1] s.: portr., il., fotoşək., 27 sm.*

❖ *İsmayılova, N. Naxçıvan Muxtar Respublika kitabxanalarının təşəkkülü və inkişaf tarixi: dərs vəsaiti /N.İsmayılova; elmi red. K.Aslan.- Naxçıvan: [Əcəmi], 2021.- 255, [1] s.: fotoşək., 20 sm.*

❖ *Hacıyev, İ. Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi və mədəni inkişafı: (1995-2019-cu illər): [monoqrafiya] /İ.Hacıyev; elmi red. H.Səfərli.- Naxçıvan: [Əcəmi], 2020.- 222, [2] s.: fotoşək., xəritə, cədv., 24 sm.*

❖ *Cəfərov, F. Naxçıvan Muxtar Respublikasında mədəni quruculuğun inkişaf tarixindən (1920-1945-ci illər): iki cilddə: [dərs vəsaiti] /F.Cəfərov, X.Hüseynov; elmi red. və ön söz. müəl. V.Baxşəliyev.- Naxçıvan: [Əcəmi], 2021.- C.1.- 310, [1] s.: cədv., 20 sm.*

- ❖ *Quliyeva, Z. Naxçıvanın Eneolit dövrü abidələri: [monoqrafiya] /Z.K. Quliyeva; elmi red. V.Baxşəliyev; AMEA, Naxçıvan bölməsi, Tarix, Etnoqrafiya və Arxeologiya İn-tu.- Naxçıvan: [Əcəmi], 2020.- 183, [1] s.: şək., portr., 24 sm.*

• **Slayd 4:** İzahlı mətn

*"Zəngin keçmişə, ənənələrə, mənəvi və mədəni dəyərlərə malik olan xalqımız keşməkeşli olduğu qədər də parlaq və şərəfli inkişaf tarixinə malikdir. Bu yolda hər bir yurd yerimiz kimi Naxçıvanın da özünün xüsusi yeri var. Bu diyar Azərbaycanın siyasi sosial-iqtisadi, elmi və mədəni həyatında hər zaman əhəmiyyətli rol oynamışdır.*

*Naxçıvan Azərbaycanın dövlətçilik tarixidir. Əcdadlarımız min illər boyu burada ardıcıl həyat sürmüş, böyük dövlətçilik ənənələrinin əsasını qoymuşlar.*

*Naxçıvan ərazisi antik və orta əsrlər dövrünə aid türk-islam mədəniyyəti nümunələri və tarixi abidələrlə - qədim yaşayış yerləri, şəhərlər, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr və təkrarsız təbiət abidələri ilə zəngindir.*

*Naxçıvan böyük şəxsiyyətlərin, Azərbaycan ədəbi-fəlsəfi fikrində və elmində xüsusi yeri olan mütəffəkkirlərin, filosofların, ustad qələm sahiblərinin vətənidir. Naxçıvan xalqımıza Hüseyn Cavid, Məmməd Səid Ordubadi, Cəlil Məmmədquluzadə, Məmməd Araz, Yusif Məmmədəliyev kimi şəxsiyyətləri bəxş edib."*

• **Slayd 5:** Kitabları oxumaq və ya daha yaxından tanış olmaq üçün kitabxananın ünvanı, elektron resurs varsa linki, əlaqə telefonları və e-mail ünvanı göstərilir.

Qeyd edək ki, slaydlar artırıla da bilər.

Milli Kitabxananın bu istiqamətdə hazırladığı virtual sərgilərlə (https://www.millikitabxana.az/projects/virtual-exhibition) də tanış ola bilərsiniz.

Kreativ iş formalarından birinə **virtual tur**ları (ekskursiyalar) misal göstərmək olar. Yubiley ili çərçivəsində kitabxanaçılar Naxçıvanda yerləşən dini və tarixi abidələrə, muzeylərə virtual turlar təşkil edə bilərlər.

Virtual turların təşkili zamanı görüntü, subtitrlər, eyni zamanda səs də nəzərə alınmaqla Naxçıvanın tarixi-memarlıq, arxeoloji, dini abidələri, ziyarətgahları, məscidləri, türbələri, turizm obyektləri haqqında məlumatlar daxil edilməlidir.

***Nümunə: "Naxçıvan Muxtar Respublikasının turizm marşrutları".***

Virtual səyahət üçün aşağıdakıları daxil etmək olar:

*Muxtar Respublikanın bütün şəhərləri (ümumi görüntü)*

*Mövcud marşrutlar:*

- Naxçıvan-Əshabi-Kəhf
- Naxçıvan-Batabat
- Naxçıvan-Ordubad
- Naxçıvan-Əlincəqala
- Naxçıvan-Qarabağlar

*Perspektiv marşrutlar:*

- Naxçıvan-Kükü-Qanlıgöl
- Naxçıvan-Nehrəm
- Naxçıvan-Sədərək
- Naxçıvan-Çənnəb
- Naxçıvan-Keçili
- Naxçıvan-Badamlı
- Naxçıvan-Haçadağ

- Naxçıvan-Dırnıs
- Naxçıvan-Şahbulaq
- Naxçıvan-Gəmiqaya
- Naxçıvan-Ordubad-Göygöl
- Naxçıvan-Zəngəzur-Şuşa turizm marşrutu

Beləliklə, videofayllar, çarxlar, slayd təqdimatlar vasitəsilə keçirilən video turlar oxuculara Naxçıvan MR-nın gəzib görməli yerlərini internet vasitəsi ilə günün istənilən vaxtı onlayn virtual səyahət edə bilmə imkanı yaradacaqdır.

Mövzu ilə bağlı tədbirlər, dəyirmi masalar, elmi-praktik konfranslar, anket-sorğu, viktorina, intellektual oyunlar və s. keçirmək olar.

Oxucular arasında **anket-sorğu** keçirilməzdən əvvəl mövzu müəyyənləşdirilməli, suallar tərtib edilməli, anketin hansı yaş qrupu arasında keçirilməsi nəzərə alınmaqla elan hazırlanmalıdır.

***Nümunə: "Naxçıvan MR haqqında nə bilirsiniz?"*** mövzusunda anket-sorğu

*Hörmətli Oxucu! Kitabxanamızın kollektivi Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyi ilə bağlı kitabxanada keçirilən kütləvi tədbirlərin keyfiyyətinin artırılmasını və belə tədbirlərin müntəzəm keçirilməsini özünün prioritet vəzifəsi sayır. Muxtar Respublikanın təbliği səviyyəsini müəyyənləşdirmək, bu sahədə oxuculara xidməti daha da təkmilləşdirmək məqsədi ilə kitabxanada anket-sorğu keçirilir. Sizi bu anket-sorğuda iştirak etməyə dəvət edirik.*

*Fikirləriniz bizim üçün dəyərlidir.*

*İştirakınıza görə Sizə əvvəlcədən təşəkkür edirik!*

Oxucular arasında əvvəlcədən açıq anket-sorğu paylanır, bunun mahiyyəti onlara izah edilir, sonda anket-sorğunun nəticələri ətrafında fikir mübadiləsi aparılır.

Anket açıq suallar əsasında tərtib edilirsə, cavablar oxucuların şəxsi təsəvvürlərinə uyğun olaraq verilir. Açıq sualda cavabların xarakteri, sayı, növləri və formaları əvvəlcədən nəzərdə tutulmur.

***Nümunə:*** Anket sorğunun sualları təxminən bu qaydada aparılır:

1. Muxtar Respublikanın şəhər və rayonları hansılardır? (Naxçıvan şəhəri, Ordubad, Culfa, Şərur, Şahbuz, Sədərək və Babək rayonları)
2. Naxçıvan MR-nın ərazisini əhatələyən Kiçik Qafqazın silsilələri? (Zəngəzur, Dərələyəz)
3. Hansı müqaviləyə əsasən Naxçıvan xanlığının ərazisi Çar Rusiyasına ilhaq olunub? (Türkmənçay, 1828)
4. Orta əsrlərdə dünya elm xəzinəsinə dəyərli töhfələr vermiş naxçıvanlı alimlər? (Əbu Əbdüllah əl-Müfərric Nəşəvi, Əhməd ibn Hacəf Nəşəvi, Əkmələddin Naxçıvani, Hinduşah Naxçıvani, Məhəmməd Naxçıvani, Fəxrəddin Naxçıvani, Baba Nemətullah Naxçıvani, Kəmaləddin Naxçıvani, Nəcməddin Naxçıvani, İzzəddin Naxçıvani, Həsən ibn Ömər Naxçıvani, Fəzlullah Nəimi və s.)
5. Naxçıvanda yerləşən və aşkara çıxarılan, bu diyarın ən qədim yaşayış yerlərindən olmasına işıq tutan qayaüstü rəsmlər necə adlanır? (Gəmiqaya, e.ə. VII–I minilliklər)
6. Naxçıvan XII əsrdə hansı qüdrətli Azərbaycan dövlətinin paytaxtı olaraq əzəmətli bir şəhər, Azərbaycanın iqtisadi, siyasi və mədəniyyət mərkəzlərindən biri idi? (Atabəylər)

7. Azərbaycan rəngkarlıq sənətində ilk akademik rəsm üslubunda işləyərək realist Azərbaycan rəssamlığının banisi olan məşhur Naxçıvanlı? (Bəhruz Kəngərli)
8. Naxçıvan şəhərində məzarüstü türbəsi olan peyğəmbər? (Nuh peyğəmbər)
9. Naxçıvan neçənci ildə İslam mədəniyyətinin paytaxtı elan edilib? (2018)
10. Əshabi-Kəhf Ziyarətgahı hansı rayonun ərazisində yerləşir? (Culfa)

Sosioloji tədqiqat forması olan anket-sorğunu saytda yerləşdirmək, yazılı şəkildə kitabxana daxilində və ya kitabxanadan kənar şifahi sual-cavab, söhbət şəklində də keçirmək mümkündür.

Naxçıvan Muxtar Respublikasının geniş oxucu kütləsi tərəfindən öyrənilməsi istiqamətində kitabxanaların həyata keçirəcəyi növbəti tədbirlərdən biri də konfransların, virtual seminarların, dəyirmi masaların və s. təşkilidir.

**Konfrans**ın təşkili üçün ilk olaraq kitabxananın elektron ünvanında konfransla bağlı elan yerləşdirilməlidir. Bu müddət ərzində kitabxanaçı konfransda iştirak edəcək şəxslərlə sıx əlaqə saxlamalı, proqram tərtib etməli, konfransda çıxış edəcək şəxsləri və onların onlayn qeydiyyatdan keçə bilmələri üçün veb ünvan müəyyən etməlidir.

***"Tarixin səhifələrindən: Naxçıvan Muxtar Respublikası-100", "Naxçıvan Muxtar Respublikası müstəqillik yollarında", "Naxçıvan Muxtar Respublikası-100: tarix və müasirlik"*** və s. mövzularda beynəlxalq və respublika miqyaslı konfranslar həyata keçirə bilərlər.

Konfransın təşkili zamanı kitabxanaçılar digər idarə və təşkilatların köməyindən də faydalana bilərlər. Həmçinin konfransın materilları çap oluna bilər.

Kitabxanalar tərəfindən son illər hazırlanan əsas vəsaitlərdən biri də **daycest**lərdir. ***"Naxçıvan Muxtar Respublikası İslam sivilizasiyasının mühüm elm, mədəniyyət və sənətkarlıq mərkəzlərindən biri kimi", "Dövlətçilik tariximizin şanlı səhifəsi: Naxçıvan Muxtar Respublikası-100"*** və s. mövzularda "daycest"in hazırlanması kitabxanaçılar və tədqiqatçılar üçün olduqca önəmlidir.

Daycest – ("digest" – ingilis dilindən tərcümədə "xülasə", "toplu" mənasını verir) çap olunmuş dövri nəşrlər haqqında qısa xülasədən ibarət siyahı və ya çap kataloqu kimi də izah edilir. Daycestlərin hazırlanması müəyyən bir mövzu və ya kitabxanaçıları daha çox narahat edən hər hansı aktual məsələ ilə bağlı daha dərin və ətraflı tədqiqat aparmağa, müxtəlif mənbələrdə çap olunmuş materialların (əsasən dövri nəşrlər) qısa xülasəsini əks etdirməklə onu geniş ictimaiyyətin diqqətinə çatdırmağa xidmət edir.

Hazırlanmış daycesti elektron formada kitabxananın saytında, sosial şəbəkələrdə yerləşdirməklə də istifadəçilərin diqqətini bu mövzuya yönəldə bilərsiniz.

***Nümunə:***

***Möhbaliyev, S. İlham Əliyevin yeni Naxçıvan modeli: Prezident muxtar respublikanın möhtəşəm inkişafının mükəmməl strategiyasını müəyyənləşdirib /Səttar Möhbaliyev //Azərbaycan.- 2023.-21 iyun.- S.4.***

https://www.anl.az/down/meqale/azerbaycan/2023/iyun/856520(meqale).pdf

*Məqalədə "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023-2027-ci illər üçün Dövlət Proqramının təsdiq edilməsi haqqında" sərəncamın müasir Naxçıvanın yeni yüksəlişinin yol xəritəsini müəyyənləşdirəcəyi qeyd edilir, Dövlət Proqramının məqsədi, 11 prioritet istiqaməti, əsas hədəflərindən bəhs olunur. Prezident İlham Əliyevin Naxçıvanı Avrasiyanın mühüm nəqliyyat habına çevirəcəyi, ümumilikdə Dövlət Proqramının Muxtar Respublikanın hərtərəfli tərəqqisinə imkan verəcəyi, innovativ yüksəlişinin mükəmməl bazisi olacağı, yeni Naxçıvan modelinin tezliklə qlobal miqyasda regional sosial-iqtisadi inkişafın və quruculuğun ən mükəmməl örnəklərindən biri kimi qəbul ediləcəyi diqqətə çatdırılır.*

***Kamal, M. Şərqin qapısı Naxçıvan tarixi proseslərin mərkəzində /Mustafa Kamal //Respublika.- 2023.- 26 sentyabr.- S.6.***
https://www.anl.az/down/meqale/respublika/2023/sentyabr/866984(meqale).pdf

*Məqalədə ölkə prezidenti İlham Əliyevin dəvəti ilə Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğanın Naxçıvan Muxtar Respublikasına səfəri, bu tarixi səfərin məqsədi, dövlət başçılarının İğdır-Naxçıvan qaz kəmərinin təməlqoyma mərasimində və Naxçıvan Bərpa-İstehsalat Hərbi Kompleksinin açılışında iştirakından bəhs olunur.*

***Yunusoğlu, Q. Naxçıvan diyarının sakral-maddi irsinin etnotarixi və morfogenetik əsasları...və hay kilsəsinin***

***əsassız iddiaları... /Qismət Yunusoğlu //Olaylar.- 2023.- 19-25 may.- S.17. https://www.anl.az/down/meqale/olaylar/2023/may/851207.htm***

*Məqalədə Naxçıvan diyarının tarixi keçmişini yaşadan daş naxışlı memarlıq nümunələrinin keçən əsrin 60-80-ci illərində kütləvi şəkildə hay kilsəsi tərəfindən qarət edilərək aparılması, bunun məhz Türk-Oğuz dünyasının maddi irsinə qarşı soyqırım siyasəti kimi qəbul edilməsindən bəhs edilir, dinsiz hay kilsəsinin bu kimi mənfur əməllərinin ünvanının təkcə Naxçıvan diyarı olmadığı, bütöv Azərbaycanın bütün coğrafi hüdudlarında eyni soyqırım fitnələrinə yol verildiyi qeyd olunur.*

Qeyd edək ki, Milli Kitabxana tərəfindən hər il müxtəlif mövzularda daycestlər hazırlanır. Kitabxanaçılar daycest hazırlayan zaman Milli Kitabxananın saytında (www.millikitabxana.az) "Nəşrlərimiz" adlı bölmədə (https://www.millikitabxana.az/publications/publications-of-thelibrary) yerləşdirilmiş bu vəsaitləri nümunə götürə bilərlər.

Naxçıvan Muxtar Respublikası ərazisində də çəkilişləri aparılmış **filmlərdən fraqmentlər nümayiş etdirilə bilər.** Demək olar ki, əsasən 1950-ci illərin əvvəllərindən üzü bəri "Azərbaycanfilm" Kinostudiyası tərəfindən muxtar respublikanın tarixi və müasir dövrü, təbiəti, tükənməz yeraltı və yerüstü sərvətləri, abidələri haqqında, o cümlədən, bu torpağın yetirmələri olan görkəmli şəxsiyyətlər - elm, ədəbiyyat, incəsənət xadimləri, sərkərdələr, müharibə və əmək qəhrəmanları, təhsil, səhiyyə, idman adamları barədə xeyli sayda, bir-birindən maraqlı və məzmunlu elmi-kütləvi və sənədli filmlər ərsəyə gətirilib.

Bütün bunlarla bərabər 1970-ci illərdən başlayaraq Muxtar Respublikanın ərazisində bədii filmlərin də müəyyən hissələrinin çəkilişi aparılmağa başlanıldı. Aşağıda qeyd etdiyimiz filmlərdən məhz Naxçıvan Muxtar Respublikası ərazisində çəkilmiş hissələrin izahlı nümayişi maraqlı olardı.

1973-cü ildə ekrana çıxan və Azərbaycan kino salnaməsində özünəməxsus yer tutan **“Nəsimi”** tarixi-bioqrafik filmdə Əlincə qalası ilə bağlı səhnələr, Nəsimilə Teymurləngin dialoqları, Nəiminin edam səhnəsi və bir neçə döyüş səhnələri muxtar respublikamızda çəkilmişdi. Əlincə qalası və ətraf ərazilər sırf natura şəklində, dekorasiyasız işlənmişdi. Filmin çəkilişlərinin aparıldığı Xanağa - indiki Xanəgah kəndi də özünün tarixiliyilə seçilir.

1976-cı ildə **“Dədə Qurqud”** filmi sadəcə məkan baxımından ideal olduğu üçün deyil, həm də bu torpağın tarixi hadisələrlə, obrazlı desək, şahidliyi səbəbindən Naxçıvanda lentə alınıb.

**“Babək”** ikiseriyalı tarixi filmimizin də bəzi kadrları Naxçıvanda çəkilmişdir. 1980-ci ildə filmin qanlı döyüş səhnələrinin əksəriyyəti Naxçıvan Muxtar Respublikasında - Culfa rayonunun Camaldın və Ərəzin kəndlərinə yaxın ərazilərdə, Dərəlik və Darıdağ sahələrində lentə alınmışdı.

**“Əzablı yollar”** filminin də bir sıra natura çəkilişləri Naxçıvan ərazisində olub. Film muxtar respublikanın unikal tarixi - təbiət abidələrindən olan Əshabi-kəhf adlı məkanda, onun mağarasında və ətraf ərazilərində çəkilmişdi.

**“Gümüşgöl əfsanəsi”**ndə məkan lirik, asketik və mifik obraz kimi ortaya çıxır. Bu məkan süjetə uyğunlaşaraq vizual üslub səviyyəsində təzahür edir. Rəsmi adı Arpaçay su anbarı olan Gümüşgöl Azərbaycanın strateji yeri hesab olunur. Çılpaq

dağların əhatəsində yerləşən Gümüşgöl adamı dərhal mistik hisslər burulğanına atır. Bu səbəbdən də rejissor Eldar Quliyev məkanın sirli aurasını hiss edərək 1984-cü ildə lentə aldığı filmin ən məşhur səhnəsini Naxçıvan Muxtar Respublikasında, Şərur rayonunun ərazisində çəkib.

1989-cu ildə çəkilmiş **"Doğma sahillər"** filmində beynəlxalq layihə sayılan Araz Su Elektrik Stansiyasının tikintisi zamanı gedən proseslər öz əksini tapıb. Filmdə Su elektrik stansiyasının tikintisini istəməyən, tikintidə müəyyən təxribatlar törətməyə çalışan mənfi qüvvələrlə mübarizə öz əksini tapır. O illərdə sovet qaydalarına əsasən sərhəddə, Araz çayı sahilində heç bir çəkilişə icazə verilmədiyi üçün filmin çəkilişləri Culfa rayonu ərazisində və Əlincə çayın sahilində, Ərəzin kəndi yaxınlığındakı bəzədilmiş, rənglənmiş "Ərəzin körpüsü"ndə aparılmışdı.

# ƏLAVƏLƏR

***Əlavə 1***

## “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında

AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasının təqribən yarıməsrlik dövrü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin fəaliyyəti ilə sıx bağlıdır. Məhz Ulu Öndərin çoxşaxəli fəaliyyəti sayəsində ölkəmizin bütün regionlarının, o cümlədən Naxçıvanın sosial-iqtisadi inkişafının möhkəm bünövrəsi qoyulmuşdur.

Azərbaycan Respublikası regionlarının sosial-iqtisadi inkişafı sahəsində 2004-cü ildən etibarən qəbul edilmiş dövlət proqramlarında nəzərdə tutulan tədbirlərin icrası Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafı, yeni iş yerlərinin və müəssisələrin yaradılması, kommunal və sosial infrastruktur təminatı səviyyəsinin yüksəlməsi ilə nəticələnmişdir.

Dövlət proqramları çərçivəsində görülmüş işlər Naxçıvan Muxtar Respublikasının qarşıdakı illərdə də inkişafı üçün geniş imkanlar yaratmışdır. Hazırda bu imkanlardan istifadə edilməklə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi həyatında, o cümlədən kənd yerlərində iqtisadi fəaliyyətin sürətləndirilməsi, əlverişli biznes mühitinin formalaşdırılması, investisiyaların cəlb edilməsi nəticəsində ixracyönlü dəyər zəncirinin qurulması

və dayanıqlı iş yerlərinin yaradılması istiqamətlərində işlərin yeni keyfiyyət mərhələsinə keçməsi əsas prioritetlərdən birinə çevrilmişdir. Bu isə öz növbəsində, Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı ilə əlaqədar tədbirlərin, həmçinin kompleks proqramların hazırlanmasını və icrasının davam etdirilməsini nəzərdə tutur.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 3-cü və 32-ci bəndlərini rəhbər tutaraq, Naxçıvan Muxtar Respublikasında iqtisadiyyatın inkişafının davamlılığının təmin edilməsi, infrastrukturun və sosial xidmətlərin daha da yaxşılaşdırılması, əhalinin məşğulluğunun və maddi rifahının yüksəldilməsi məqsədilə **qərara alıram:**

1. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı" təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın (bundan sonra – Dövlət Proqramı) 2023–2024-cü illərdə maliyyələşdirilməsi ilə bağlı təkliflərini bir ay müddətində, 2025–2027-ci illərdə maliyyələşdirilməsi ilə bağlı təkliflərini isə 2024-cü il iyulun 1-dək hazırlayıb Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Sərəncamın 1-ci hissəsi ilə təsdiq edilən Dövlət Proqramının Tədbirlər Planına və müəyyənləşdiriləcək maliyyə vəsaitinin həcminə uyğun olaraq, üç ay müddətində 2023–2024-cü illər üzrə, 2024-cü il sentyabrın 1-dək isə 2025–2027-ci illər üzrə tədbirlər planında nəzərdə tutulmuş məsələlərin icrasının

təmini üçün daha təfsilatlı tədbirlər planlarının layihələrini Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin həyata keçirilməsini əlaqələndirsin və Dövlət Proqramının icrası barədə ildə bir dəfə Azərbaycan Respublikasının Prezidentinə məlumat versin;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

4. Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini, Azərbaycan Respublikası Nazirlər Kabinetinin sifarişi əsasında, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi həyata keçirsin.

5. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti Dövlət Proqramında nəzərdə tutulmuş tədbirlərin maliyyələşdirilməsi məqsədilə hər il Azərbaycan Respublikası dövlət büdcəsinin, dövlət investisiya proqramlarının və Naxçıvan Muxtar Respublikası dövlət büdcəsinin tərtibi prosesində zəruri maliyyə vəsaitinin nəzərdə tutulması üçün müvafiq tədbirlər görsünlər.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 5 iyun 2023-cü il
№3910

*Əlavə 2*

**“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə Azərbaycan Respublikasının Baş nazirinin Sərəncamı**

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamının icrasını təmin etmək məqsədilə:

1. Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi, İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi və “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nda (bundan sonra – Proqram) nəzərdə tutulmuş tədbirlər üzrə icraçı orqanlar (qurumlar) ilə razılaşdırmaqla, Proqramın Tədbirlər Planına və müəyyənləşdiriləcək maliyyə vəsaitinin həcminə uyğun olaraq, iki ay müddətində 2023–2024-cü illər üzrə, 2024-cü il iyulun 1-dək isə 2025–2027-ci illər üzrə Tədbirlər Planında nəzərdə tutulmuş məsələlərin icrasının təmini üçün daha təfsilatlı tədbirlər planlarının layihələrini Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

2. İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzi:

2.1. Proqramda nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqini və qiymətləndirilməsini təmin etmək məqsədilə mövcud rəqəmsal resurslar əsasında "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramının icrasının monitorinqi və hesabatlılıq modulu"nun (bundan sonra – Modul) formalaşdırılmasını 3 (üç) ay müddətində təmin etsin;

2.2. Proqramda qeyd olunmuş tədbirlərlə bağlı icraçı orqanlar (qurumlar), obyektlər üzrə icra müddətlərini (illər üzrə bölgüsü), layihələrlə bağlı (texniki-iqtisadi, ekspertiza və s.) məlumatları və digər zəruri göstəriciləri təsnifatlandırmaqla, mövcud vəziyyət barədə informasiyaları, aidiyyəti foto və videomaterialları, habelə iri layihələrə münasibətdə birbaşa (onlayn) kamera müşahidəsini təmin edən sistemdə hesabatlılığa imkan verən müvafiq bölmələrin Modulda yaradılmasını təmin etsin;

2.3. Proqramda nəzərdə tutulmuş tədbirlərin icrasının monitorinqinin nəticəsi barədə məlumatları ildə bir dəfə, hər ilin mart ayının 25-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin;

2.4. Proqramda nəzərdə tutulmuş tədbirlərin icrasının qiymətləndirilməsinin nəticəsi barədə məlumatları 2025-ci və 2028-ci illərin mart ayının 25-dək Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsin.

3. Proqramda nəzərdə tutulmuş tədbirlər üzrə əsas və digər icraçı orqanlar (qurumlar) Proqramda qeyd olunmuş tədbirlərin aidiyyəti üzrə icrası məqsədilə rəhbərlərinin müavinlərindən ibarət məsul şəxsləri təyin edərək onlar barədə məlumatı 10 (on) gün müddətində Azərbaycan Respublikasının Nazirlər Kabinetinə təqdim etsinlər.

4. Proqramda nəzərdə tutulmuş tədbirlər üzrə əsas icraçı orqanlar (qurumlar) bu Sərəncamın 2.2-ci bəndində göstərilən məlumatların monitorinq və qiymətləndirmənin həyata keçirilməsi məqsədilə İqtisadi İslahatların Təhlili və Kommunikasiya Mərkəzinə təqdim edilməsi üçün rübdə bir dəfə, növbəti ayın 15-dək, ilin yekunları barədə məlumatların isə hər ilin yanvar ayının 25-dək Modulda yerləşdirilməsini təmin etsinlər.

5. Bu Sərəncamın icrasına nəzarət Azərbaycan Respublikası Nazirlər Kabineti Aparatının rəhbərinə və Regionların inkişafı şöbəsinə həvalə edilsin.

6. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 14 iyun 2023-cü il

*Əlavə 3*

**“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın 2023–2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı”nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Baş nazirinin Sərəncamı**

“Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın təsdiq edilməsi haqqında” Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamının 3.3-cü bəndinə əsasən:

1. “Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı”nın 2023–2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı” təsdiq edilsin (əlavə olunur).

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi, Naxçıvan Muxtar Respublikasında Azərbaycan Respublikası Prezidentinin səlahiyyətli nümayəndəliyi və Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsinlər.

3. Bu Sərəncam imzalandığı gündən qüvvəyə minir.

**Əli ƏSƏDOV,**
**Azərbaycan Respublikasının Baş naziri**

Bakı şəhəri, 15 sentyabr 2023-cü il

# MÜNDƏRİCAT

Tərtibçidən…………………………………………………….. 4
Naxçıvan Muxtar Respublikasının 100 illik yubileyinin qeyd edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı........................................................................6
Yaşar Rəhimov. Naxçıvanın muxtariyyəti - mühüm tarixi nailiyyət: Naxçıvan Muxtar Respublikası-100.............................9
Yubiley ili ilə əlaqədar kitabxanalarda keçiriləcək tədbirlər.......16
ƏLAVƏLƏR
Əlavə 1. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı.......................................................30
Əlavə 2. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 5 iyun tarixli 3910 nömrəli Sərəncamının icrasının təmin edilməsi barədə Azərbaycan Respublikasının Baş nazirinin Sərəncamı.......................................................................33
Əlavə 3. "Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafına dair 2023–2027-ci illər üçün Dövlət Proqramı"nın 2023–2024-cü illər üzrə Təfsilatlı Tədbirlər Planı"nın təsdiq edilməsi haqqında Azərbaycan Respublikasının Baş nazirinin Sərəncamı.......................................................................36

